Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

Sumqayıt Dövlət Universiteti

# İnnovasiya Yaradıcılıq Mərkəzi haqqında

# Ə S A S N A M Ə

SDU-nun Elmi Şurasının 09 fevral 2023-cü il tarixli iclasında (prot. № 06 ) təsdiq olunmuşdur.

Elmi Şuranın sədri,
Rektor ______ prof. E.B.Hüseynov

*SUMQAYIT - 2023*

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Əsasnamə Sumqayıt Dövlət Universitetinin (bundan sonra – SDU) struktur bölməsi olan İnnovasiya Yaradıcılıq Mərkəzinin (bundan sonra – İYM və ya Mərkəz) fəaliyyətini tənzimləyir.

1.2. İYM-nin yaradılması SDU-nun Elmi Şurasının 18 may 2022-ci il tarixli iclasında (protokol №09) qərara alınmışdır.

1.3. İYM öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin və Dövlət orqanlarının innovasiya-yaradıcılıq sahəsində qəbul etdiyi normativ hüquqi aktlarını, əmrlərini, təlimat məktublarını, Universitetin Nizamnaməsini, Elmi Şuranın qərarlarını, rektorun əmr və sərəncamlarını, eyni zamanda bu Əsasnaməni rəhbər tutur.

1.4. İYM öz fəaliyyətində Universitetin elm və innovaiyalar üzrə prorektoruna tabedir.

1.5. İYM öz fəaliyyətini Universitetin digər struktur bölmələri ilə sıx əməkdaşlıq şəraitində həyata keçirir.

1.6. İYM-nə rəhbərlik direktor tərəfindən həyata keçirilir. O, rektorun əmri ilə təyin edilir və işdən azad olunur.

1.7. İYM-nin yenidən təşkili və ya ləğvi SDU-nun Elmi Şurasının qərarı ilə həyata keçirilir.

## 2. İNNOVASİYA YARADICILIQ MƏRKƏZİNİN MƏQSƏDİ

2.1. SDU-da innovasiya yaradıcılıq fəaliyyətinin təşviq edilməsi.

2.2. SDU-da təhsilalanların və təhsilverənlərin innovasiya yaradıcılıq fəaliyyətlərinin dəstəklənməsi.

2.3. SDU-da gənclərin elmə, müasir texnologiyalara və qabaqcıl biliklərə marağının artırılması.

2.4. Qloballaşma şəraitində yeni iqtisadi çağırışlara uyğun rəqabətqabiliyyətli insan kapitalının davamlı və dayanıqlı inkişafına nail olunması.

2.5. İYM-nin müasir elmi-tədqiqat və innovasiya mərkəzinə çevrilməsi.

2.6. SDU-nun ölkədə *təhsil – elm – tədqiqat – innovasiya* mərkəzlərindən birinə çevrilməsi istiqamətində innovativ yaradıcılıq fəaliyyətinin təşkili.

2.7. Universitet – biznes əməkdaşlıq münasibətlərinin qurulması və inkişaf etdirilməsi.

2.8. SDU-da istedadlı tələbələrin və professor-müəllim heyətinin elmi araşdırmalarda birgə iştirakını nəzərdə tutan elmi-tədqiqat proqramlarının həyata keçirilməsi.

2.9. İnnovasiya yaradıcılığı sahəsində dünyada qabaqcıl yer almış uyğun xarici müəssisələrin təcrübəsinin öyrənilməsi, tətbiqi və təşviqi, onlarla beynəlxalq əməkdaşlığın təşkili.

## 3. İNNOVASİYA YARADICILIQ MƏRKƏZİNİN VƏZİFƏ VƏ FUNKSİYALARI

3.1. SDU-da müasir tələblərə uyğun İnnovasiya Yaradıcılıq Mərkəzinin binasının tikilməsi istiqamətində təxirəsalınmaz zəruri işlərin təşkil edilməsi.

3.2. İYM binasının otaqlarının müasir tələblərə uyğun avadanlıqlarla təchiz olunması istiqamətində zəruri işlərin görülməsi.

3.3. SDU-nun tələbə və müəllimləri ilə yanaşı Sumqayıt şəhər sakinlərinə onların innovasiya-yaradıcılıq fəaliyyətində İYM tərəfindən 24/7 müddətində xidmətin göstərməsi.

3.4. Müxtəlif ixtisaslar üzrə Ekspert qiymətləndirmə qrupunun fəaliyyətinin təşkil edilməsi.

3.5. SDU-da daxili Startup müsabiqələrinin təşkili.

3.6. SDU-da İnnovasiyalar fondunun yaradılması.

3.7. Yaradılmış Mentor qrupunun səmərəli fəaliyyətinin təşkil edilməsi.

3.8. SDU-nun tələbə və müəllimləri üçün mentor təlim, inkubasiya idarəetmə və Startap təlim proqramlarının təşkil edilməsi.

3.9. Xarici ölkələrdən və republikanın müvafiq qurumlarından innovasiya yaradıcılıq məsələləri üzrə təlimçilərin dəvət olunması.

3.10. İYM-nin fəaliyyəti nəticəsində əldə olunan innovasiya təkliflərinin (ideyaların) həyata keçirilməsini təmin etmək istiqamətində işlərin görülməsi.

3.11. İnnovasiya Yaradıcılıq Mərkəzinə daxil olan innovativ ideyaların əsasında yaranacaq firmalara mənəvi, maddi, texniki, hüquqi, iqtisadi dəstəyin verilməsi.

3.12. İYM-nin Sumqayıt şəhərində fəaliyyət göstərən dövlət və özəl sənaye müəssisələri ilə əməkdaşlığının qurulması və inkişaf etdirilməsi.

3.13. Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR), Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi tərəfindən təşkil olunan Startap, Hakaton və digər məqsədəuyğun müsabiqə və sərgilərin təşviqi.

3.14. SDU-nun Strateji planına əsasən İYM-nin Fəaliyyət proqramının yaradılması və proqrama əsasən işlərin görülməsi.

3.15. İYM-da görülən işlərin sənədləşdirilməsi və gələcək nəsillər üçün arxivləşdirilməsi.

## 4. İNNOVASİYA YARADICILIQ MƏRKƏZİNİN STRUKTURU

4.1. İYM-nin strukturu Universitetin rektoru tərəfindən təsdiq edilir.

4.2. İYM-nin tərkibi ilkin olaraq bir direktor və bir operator ştat vahidindən ibarətdir. Ştat cədvəli rektorun əmri ilə təsdiq edilir və dəyişdirilir.

4.3. İYM-nin tərkibində ictimai əsaslarla müxtəlif ixtisaslar üzrə:

- ✓ Mentor təlim,
- ✓ Startap təlim,
- ✓ İnkubasiya idarəetmə,
- ✓ Ekspert

qrupları fəaliyyət göstərir.

## 5. İNNOVASİYA YARADICILIQ MƏRKƏZİNİN DİREKTORUNUN VƏZİFƏLƏRİ

5.1. İYM-nin fəaliyyətinə rəhbərlik edir.

5.2. Mərkəzin əməkdaşları arasında vəzifə bölgüsü aparır və buna uyğun vəzifə təlimatları hazırlayır.

5.3. Mərkəzin səmərəli fəaliyyətini təmin etmək məqsədilə təkliflər hazırlayır.

5.4. SDU-nun müəllim və tələbələrinin innovasiya-yardıcılıq fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlayır.

5.5. İYM-nə həvalə edilmiş tapşırıqların yüksək keyfiyyətlə və vaxtında yerinə yetirilməsinə nəzarəti həyata keçirir.

5.6. Mərkəzin fəaliyyəti barədə Universitetin rəhbərliyinə və Elmi Şurasına hesabat verir.